Azərbaycan Respublikası
Auditorlar Palatasının sədri
cənab Vahid Novruzova

Hörmətli Vahid müəllim,

Sizi Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılmasının 25 illiyi münasibətilə ürəkdən təbrik edirəm!

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dahi şəxsiyyət Heydər Əliyev dövlətçilik tariximizin təcrübəsində qazanılmış ənənələri yeni dəyərlər və siyasi baxışlarla zənginləşdirərək, müstəqilliyimizin möhkəmlənməsinə, ölkənin yenidən qurulmasına nail olmuş, Azərbaycanı böyük tarixi inkişaf yoluna çıxarmışdır. Fərəhləndirici haldır ki, ümummilli liderimizin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı yüksəlişi təmin edilmiş, qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olunmuşdur. Azərbaycanın regionda lider dövlətə çevrilməsi ilə nəticələnmiş bu islahatlar çərçivəsində ölkəmizdə müstəqil audit sistemi də formalaşmışdır.

Dünyada sivil maliyyə nəzarəti forması kimi tanınan auditin Azərbaycan Respublikasında inkişafı ölkəmizdə iqtisadi münasibətlərin bazar prinsiplərinə əsaslanması və azad sahibkarlığa geniş meydan verilməsi ilə bilavasitə bağlıdır. Ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə maliyyə münasibətlərində şəffaflığın təmin olunması, iqtisadi cinayətkarlıq və korrupsiya hallarının qarşısının alınması proseslərində auditin rolu da getdikcə artır. Milli audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında qurulmasında, ölkə iqtisadiyyatında maliyyə şəffaflığının, büdcə vəsaitlərindən təyinatına uyğun xərclənməsinə nəzarətin təmin edilməsində və bütövlükdə Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsində audit sahəsində çalışanların da öz payı vardır.

Sizi və Auditorlar Palatasının bütün üzvlərini bir daha bu əlamətdar tarix münasibətilə ürəkdən təbrik edir, doğma Azərbaycanımızın firavan gələcəyi naminə səmərəli fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Hörmətlə,

Nazir Sahil Babayev